*Cəlal Nəsimi oğlu SƏFƏROV*
*Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı*
*E-mail: Celalseferov.cs@gmail.com*

# YAŞIL İQTİSADİYYATIN İNKİŞAFININ REGİONAL PROBLEMLƏRİ

***Xülasə***

Azərbaycanın və onun regionlarının yüksək iqtisadi artım templərinin təmin edilməsi zərurəti şəraitində mövcud ekoloji, iqtisadi və sosial risklərin aradan qaldırılmasının perspektiv istiqamətlərindən biri yaşıl iqtisadiyyata keçid əsasında regionların davamlı inkişafının təmin edilməsidir. Yaşıl iqtisadiyyatın inkişafı ilə əlaqədar ölkədə görülən işlərə baxmayaraq, regional səviyyədə ona keçidin idarəetmə aspektləri hələ də zəif öyrənilmişdir. Hazırda dünyanın bir çox ölkələrinin iqtisadi inkişafı ətraf mühitə mənfi təsirin artması ilə müşayiət olunur ki, bu da ətraf mühitin çirklənməsinə və deqradasiyasına, meteoroloji və iqlim şəraitinin dəyişməsinə, bioloji müxtəlifliyin azalması və itirilməsi ilə bərabər müxtəlif xəstəliklərin artmasına səbəb olur.

***Açar sözlər: yaşıl iqtisadiyyat, aqrar sahə, istilik effekti yaradan qazlar, istixana, iqlim dəyişikliyi, bərpa olunan enerji.***

***

Qeyd edək ki, yaşıl iqtisadiyyat dövrün tələblərinə cavab şəklində ortaya çıxaraq təbiətin, vətəndaşların, sahibkarların və dövlətin xeyrinə yeni inkişaf yolunu müəyyən edir. Yaşıl iqtisadiyyat adlanan iqtisadi inkişaf aşağı karbonlu, resursdan səmərəli istifadə edən və sosial baxımdan inklüziv inkişaf olaraq hər şəxs və subyekt üçün səmərəlidir. Burada, keçmişin qəhvəyi iqtisadiyyatı ilə müqayisədə daha çox iqtisadi səmərəliliyə və artıma diqqət yetirilir, ətraf mühitə mənfi təsirləri azaldır və sosial bərabərliyə daha çox üstünlük verilir.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı tərəfindən 2009-cu ilin fevralında açıqlanan Qlobal Yaşıl Yeni Müqavilə hazırda geniş vüsət almaqdadır. Yaşıl Yeni Sövdələşmə üç əsas məqsədi elan edir: dünya iqtisadiyyatının bərpasını təşviq etmək, iş yerləri yaratmaq, Minilliyin İnkişaf Məqsədlərinə (MİM), xüsusilə də ifrat yoxsulluğun aradan qaldırılmasına nail olmaq və ətraf mühitin mühafizəsi üçün qalıq yanacaqlardan asılılığın azaldılması. Haqlı olaraq qeyd edilir ki, ekosistemin pisləşməsi bu mərhələdə iqtisadi inkişafın və insan cəmiyyətinin üzləşdiyi bütün problemlərin səbəbi olmaqla bərabər cavab tədbirlərinin görülməsini şərtləndirir.

Bir çox ölkələr ekoloji problemlərdən ciddi şəkildə narahat olmuş və mənfi antropogen təsirlərlə mübarizə aparmaq üçün iqtisadi tədbirlər kompleksi hazırlamışlar. Bu sahədə öncüllər Qərbi Avropa dövlətləri, Cənubi Koreya, ABŞ və Çindir. Rusiyada yaşıl iqtisadiyyat da inkişaf etmiş ölkələrdən geri qalmasına baxmayaraq, inamla inkişaf edir [6].

Yaşıl iqtisadiyyat hər şeydən əvvəl ətraf mühitin mühafizəsini təmin edir, təbiətdən və təbii resurslardan insanların xeyrinə səmərəli istifadəni aktuallaşdırır. Bu isə öz növbəsində yoxsulluq səviyyəsinin sürətlə azalmasına, ölkə iqtisadiyyatını yüksəltməyə, regionlar və ölkələrarası sosial inteqrasiyanı təşviq etməyə və insanların rifahını yaxşılaşdırmağa kömək edir. Əslində, iqtisadiyyat və ətraf mühit arasındakı əlaqə ətraf mühit və digər sosial ehtiyaclar hesabına iqtisadi inkişafın prioritetləşdirilməsində iqtisadiyyat, ətraf mühitin mühafizəsi və sosial inkişaf arasında tarazlı orta xətti tapmağa doğru inkişaf edir.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5 əsas prioritet müəyyən

edilmişdir ki, onun 5-si Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi inkişaf etməsini hədəfləmişdir. Burada "qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviq edilməsi müəyyən edilmişdir. Eyni zamanda, ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi nəzərdə tutulmuşdur. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunması mqəsədəuyğun hesab edilmişdir:

- yüksək keyfiyyətli ekoloji mühitə;
- yaşıl enerji məkanı kimi formalaşmağa."[1]

Bundan başqa Azərbaycan yaşıl iqtisadiyyata xüsusi önəm verən bir ölkə kimi 2024-cü ilin noyabr ayında COP29 keçirilməsinə ev sahibliyi edəcək. Qeyd edək ki, COP29-un dünyanı narahat edən iqlim dəyişikliklərini və bunula əlaqədar yaranan bir sıra problemlərin aradan qaldırılmasını müzakirə etmək və səmərəli danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirməyi, çixiş yollarını aramağı planlaşdırır.

Yüksək keyfiyyətli ekoloji mühitə nail olmaq ilk növbədə ölkə əhalisinin sağlamlığını qorumağa və gələcək nəsillər üçün flora və faunanın qorunub saxlanmasına imkan verir. Bu ilk növbədə yaşıl enerji imkanlarından səmərəli istifadədən çox asılıdır. Hazırda dünyada yaşıl iqtisadiyyatın dayanıqlı inkişafa nail olmaq və yoxsulluğun aradan qaldırılması üçün mühüm vasitə olduğu qənaətinə gəlinmişdir. Bərpa olunan enerji mənbələrindən istifadə istehsal olunan məhsulun həm keyfiyyətinə, həm də rəqabət qabiliyyətinə müsbət təsir etməkdədir. Bu sahədə Çin, Yaponiya və Amerika təcrübələri geniş yayılmaqdadır. İnkişaf etməkdə olan ölkələr bu gün dünya bazarına çıxmaq üçün yaşıl iqtisadiyyatı inkişaf etdirməkdə maraqlı olmaqları ilə bərabər, rəaqbətqabiliyyətli istehsala nail olmaq onlar üçün şərtdir.

İqtisadçı alim, professor İ.İbrahimov öz tədqiqatlarında göstərir ki, "istehsalın intensiv inkişafının təmin edildiyi hazırkı şəraitdə təbii ehtiyatlardan istifadə və ətraf mühitin qorunmasına dair kompleks tədbirlərin hazırlanması və onun xüsusi ardıcıllıqla planlı qaydada həyata keçirilməsi təbii resurslardan səmərəli istifadə etməyə, ekoloji təmiz məhsul istehsalına imkan verir və ətraf mühitin qorunmasını təmin edir"[2, s. 337]

Azərbaycanın regionlarında yeni infrastrukturların yaradılması, bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının araşdırılması yaşıl iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Bu məqsədlə regionların bərpa olunan enerji potensialı hesablanaraq müəyyən edilmişdir. Eyni zamanda 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişaf etdirilməsi üçün "2020-ci ilin iqtisadi yekunlarına dair 6 yanvar 2021-ci il tarixli müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının yaradılmasına dair strateji baxış irəli sürülmüş və bunun üçün həmin ərazilərdə kifayət qədər bərpa olunan enerji potensialının olması bildirilmişdir[4].

Aqrar sahədə son illərdə istixana məhsullarının istehsalı və ixracı genişlənməkdədir. Burada Şəmkir, Tovuz, Qazax, Sabirabad, Göyçay, Abşeron və Bakı şəhərləri xüsusi rol oynayır. Məlum olduğu kimi istixana qazlarının emissiyalarının çox olması və daima havaya atılması nəticəsində iqlim dəyişikliyinə təsiri problemi hazırda bütün dünya ölkələri üçün ən aktual problemə çevrilmişdir. Azərbaycanda istilik effekti yaradan qaazların atılması dinamikası cədvəl 1-də verilmişdir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə istilik effekti yaradan qazların atılması artan dinamikaya malikdir və bu sahədə energetika sahəsi öndə gedir. Havaya atılan qazların 2021-ci ildə 11.7%-i kənd təsərrüfatı və meşə təsərrüfatının bitkiləri hesabına udulmuşdur. Azərbaycan dünyada qazların atılmasına görə ən aşağıda olan ölkələr qrupuna daxildir. İstilik yaradan qazların havaya atılması nəticəsində baş verən iqlim dəyişikliyi, havanın temperaturunun yüksəlməsi təbii su ehtiyatlarının azalmasına və gələcək məhsul istehsalına ciddi zərər verdiyindən, iqlim dəyişikliyi ilə qlobal temperaturun artması məsələsi digər ölkələr kimi Azərbaycan üçün də xüsusilə vacibdir. Çünki, Azərbaycan kiçik bir ərzaiyə malik olmaqla, çox az həcmdə kənd təsərrüfatında istifadə olunan əkin sahələrinə malikdir. İqlim dəyişikliyi bütün sahələrə olduğu kimi kənd təsərrüfatına da mənfi təsir edir və bu özünü aqrar sahədə daha qabarıq göstərir.

**Cədvəl 1.**

**Sahələr üzrə istilik effekti yaradan qazların atılması *(milyon ton CO2 ekvivalentində)**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Energetika | 47.4 | 47.5 | 49.0 | 49.8 | 53.4 |
| Sənaye | 3.2 | 3.4 | 3.3 | 3.2 | 3.3 |
| Kənd təsərrüfatı | 8.7 | 8.7 | 8.0 | 8.0 | 7.6 |
| Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı**) | -7.2 | -7.2 | -7.5 | -8.5 | -7.7 |
| Tullantılar | 1.3 | 1.3 | 1.4 | 1.4 | 1.5 |
| Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı nəzərə almaqla, cəmi | 53.4 | 53.6 | 54.1 | 53.9 | 58.1 |
| Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı istisna olmaqla, cəmi | 60.6 | 60.8 | 61.6 | 62.4 | 65.8 |

*Mənbə:stat.gov.az(sənaye)*

*) Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən;
**) minus " - " işarəsi ilə istilik effekti yaradan qaların absorbsiyası (udulması) göstərilmişdir;

Bir qrup Azərbaycanlı alim və tədqiqatçılar öz tədiqatlarında göstərir ki, "İqlim dəyişikliyi bütün iqtisadi fəaliyyət növlərini əhatə edərək, bütünlükdə planetə mənfi təsir edir. Bütün dünyanı narahat edən bu problem sürətlə inkişaf edən texnoloji yeniliklər, dünya iqtisadiyyatının qlobal xarakter alması ilə daha da təsir gücünü artırır. Beləliklə, iqlim dəyişikliyi iki səbəbə görə xüsusi iqtisadi problem kimi qiymətləndirilməlidir" [3, s. 57]. Burada insanların bütün həyat və fəaliyyətinə təsirləri olan xarici təsir problemi və ölkənin davamlı iqtisadi inkişafına birbaşa təsir göstərən iqtisadi problem kimi nəzərdə tutulur.

İqlim dəyişikliyinin yaratdığı problemləri azaltmaq və ya qarşısını almaq üçün buna səbəb olan amillərin aradan qaldırılması mütləqdir. Azərbaycanda bununla əlaqədar olaraq heyvandarlığın və istixanaların çirklənmə mənbəyinə çevrilməməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Son zamanlarda bəzi fermerlər və digər təsərrüfat sahibləri torpağın sağlam ekoloji təmiz münbitliyinin təmin edilməsində, istixana qazlarının azaldılmasında və mühafizə təcrübələrinin artırılmasında əhəmiyyətli irəliləyişlər əldə ediblər. İstixanalarda yeni innovativ qurğulardan, bərpa olunan enerji imkanlarından istifadə edilməkdədir. Ləng olmasına baxmayaraq müasir heyvandarlıq komplekslərinin qurulması istiqamətində işlər görülür.

Bir çox təsərrüfat subyektləri üçün ən mühüm problem "yaşıl" iqtisadiyyatın maliyyələşdirilməsi problemidir. Onlar bu istiqamətdə vəsait xərcləməyə risk etmirlər. Lakin müasir avadanlıqlardan və qurğulardan istifadəyə çəkilən xərclərin 50%-ə qədər azalmasına imkan verir ki, bu da məhsulun yüksək rəqabətqabiliyyətliliyinə gətirib çıxarır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər., https://president.az/az/articles/view/50474
2. İbrahimov İ.H., Aqrar sahənin iqtisadiyyatı, Monoqrafiya, Bakı-2016.,- 655 s.
3. Qasımlı V.Ə., Hüseyn R.Z. və s., Yaşıl iqtisadiyyat, "Azprint" nəşriyyatı, Bakı – 2022, 280 s.
4. https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
5. https://www.stat.gov.az/source/balance_fuel/
6. https://journal.sovcombank.ru/esg/chto-takoe-zelenaya-ekonomika

***Джалал Насими оглы Сафаров***
***диссертант Центра Аграрных Исследований***
***E-mail: Celalseferov.cs@gmail.com***

## Региональные проблемы развития зеленой экономики

***Резюме***

Одним из перспективных направлений преодоления существующих экологических, экономических и социальных рисков в условиях необходимости обеспечения высоких темпов экономического роста Азербайджана и его регионов является обеспечение устойчивого развития регионов на основе перехода к зеленой экономике. Несмотря на проделанную в стране работу по развитию зеленой экономики, управленческие аспекты перехода к ней на региональном уровне изучены пока слабо. В настоящее время экономическое развитие многих стран мира сопровождается усилением негативного воздействия на окружающую среду, что приводит к загрязнению и деградации окружающей среды, изменению метеорологических и климатических условий, росту различных заболеваний наравне со снижением и утратой биоразнообразия.

***Ключевые слова: зеленая экономика, аграрный сектор, Газы, создающие тепловой эффект, парник, изменение климата, возобновляемые источники энергии.***

***Jalal Nasimi oglu Safarov***
***dissertation candidate at the Center for Agrarian Research***
***E-mail: Celalseferov.cs@gmail.com***

## Regional problems of green economy development

***Summary***

One of the promising areas for overcoming existing environmental, economic and social risks in the context of the need to ensure high rates of economic growth in Azerbaijan and its regions is to ensure sustainable development of the regions based on the transition to a green economy. Despite the work done in the country to develop a green economy, the managerial aspects of the transition to it at the regional level have so far been poorly studied. Currently, the economic development of many countries of the world is accompanied by an increased negative impact on the environment, which leads to pollution and degradation of the environment, changes in meteorological and climatic conditions, the growth of various diseases along with the decline and loss of biodiversity.

***Key words: green economy, agricultural sector, Gases creating a thermal effect, greenhouse, climate change, renewable energy sources.***